# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №20 (60) • 18.07.2011



AzadliqRadiosu.az

**Hüquq müdafiəçisi Vidadi İsgəndərli məhkəmə qarşısına çıxarılıb** səh.3

**Baş Prokurorluq məktəb tikintisində yeyintini araşdırır** səh.4

**Блогер посчитал вещи Медведева** səh.6

**Korrupsiyada ittiham olunanlar yeni vəzifəyə təyin edilir** səh.11

**Bakı Beynəlxalq Avtovağzalı qalmaqalı bitmək bilmir** səh.12

**Bakı dünyanın ən bahalı şəhərləri siyahısında** səh.14

**Azərbaycanlılar manatı dollardan daha çox sevir** səh.15


## Həkimlər talassemiyalı xəstəyə «Hepatit-C» virusu yoluxdurub



səh.10

## 185 milyon manat Beynəlxalq Bankdan necə çıxıb?

Azərbaycan Beynəlxalq Bankından külli miqdarda pul vəsaitləri yoxa çıxıb. Məsələ səhmlərinin 50 faizi dövlətə məxsus olan bankda audit yoxlamaları və hüquq-mühafizə orqanlarının məhkəmə müraciətlərindən bəlli olub. Bank və dövlət rəsmiləri isə gedən yoxlamaları və hətta həbsləri də ört-basdır etməyə çalışırlar. Hərçənd ki, itirilən təkcə dövlət vəsaiti deyil.

səh.9-10




Etibar Əliyev: **«Azərbaycan təhsili Afrika standartlarına uyğundur»** səh.4

**Dənizə getmək üçün prezidentə müraciət etdilər** səh.5

Allahşükür Paşazadə: **"Yas çadırına 30-40 min verirlər"** səh.14

# Eynulla Fətullayevin cəza çəkdiyi kamera


Eynulla Fətullayev

**«Səhər oyananda ayaqyolu tapa bilmirdim. 1000 məhkuma 23 ayaqyolu nəzərdə tutulub. Həmin kabinələrdə isə su gəlmir. Həbsxanada qeyri-ənənəvi qayda var, gündə bir dəfə «vurulmuş» məhkumlar oranı təmizləyir. Ora daim növbədir, ora düşmək olmur. Yaxud hamam məsələsi. 12 saylı cəzaçəkmə müəssisəsində 1000 məhkuma 9 duş nəzərdə tutulmuşdu. Mən sabunlanırdım, növbə tuturdum. Duşa yaxınlaşanda hiss edirdim ki, sabun mövcud deyil. Qışda isə vaxt vardı həmin hamamda xəstələnməmək üçün 1-2 ay çimmirdim».**

Bir müddət əvvəl əfv fərmanı ilə azadlığa çıxan jurnalist Eynulla Fətullayev həbsxana xatirələrini bölüşür. O, həbsxanalardakı vəziyyətin ağır, nəzarətsiz olduğunu iddia edir. Sovetlər həbsxanasında «oğru vəziyyəti» – «obşaq» deyilən sistemin bu gün Azərbaycanda davam etdiyini, qapalı tipli təcridxanalarda kriminal ünsürlərin hakimiyyətinin hökm sürdüyünü deyir.

Jurnalistin iddiasına görə, hazırda «obşaq» iki təcridxanada - Bakı İstintaq Təcridxanasında və Qobustan həbsxanasında saxlanmaqdadır:

**«OBŞAQ»LARIN MƏQSƏDİ**

*«Onlar sanki bir koalisiyaya daxil olaraq vahid məqsədlərə işləyirlər. Həbsxana rəisi hansısa kiçik bir məsələyə müdaxilə edə bilmir, məhkumdan pul götürə bilmir. Həmin «nüfuzlar» vasitəsilə pulları əldə edir, eyni zamanda birbaşa narkotik satdıra bilmirlər. Həmin «obşaqdan» narkotik satmaq üçün də istifadə olunur. Üçüncüsü, son zamanlar həmin «obşaqlar» siyasi məhbuslara, vicdan məhbuslarına qarşı cəza mexanizmi kimi istifadə olunmaqdadır».*

Eynulla Fətullayev ilin əvvəlindən ölkədə korrupsiya əleyhinə elan olunan kampaniyanın bəlkə də ən çox məhbuslara təsir etdiyini deyir. Müvəqqəti də olsa, rüşvətin aradan qaldırılmasını kədərlə qarşıladıqlarını deyən Eynulla Fətullayev özünün də həbsdə rüşvət verdiyini əlavə edir:

**KARSERƏ DÜŞMƏMƏK ÜÇÜN 1-2 MANAT**

*«Məsələn, rüşvəti nə üçün alırdılar? 12 saylı cəzaçəkmə müəssisəsində saat 6-da yataqdan qalxmalısan və axşam 17:00-a kimi ayaqda olmalısan, uzanmağa belə icazə verilmir. Bəzən mən gecələr işləyirdim, yazırdım-oxuyurdum. Elə olurdu ki, 5 dəqiqə gec oyanırdım. Bu məqam nəzarətçi gələndə 1-2 manat verirdin ki, bu haqda məlumat verməsin. Məlumat verilsəydi, dərhal ən azı 3 sutka karserə salırdılar».*



Arif Hacılı

**JURNALİSTİN «CƏFƏNGİYYATI»?**

Ədliyyə Nazirliyi Penitensiar Xidmətin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Mehman Sadıqov isə, ümumiyyətlə, həbsxanalarda neqativ halların olmasını qəbul etmir. Deyir ki, jurnalistin iddiaları «cəfəngiyyatdır»:

«Əlbəttə, bəzi pozuntular var, problemlərimiz də var, onlarla mübarizə aparırıq. Amma demək olmaz ki, dözülməz şərait, kütləvi korrupsiya halı var və yaxud «obşaq» qrupları cəzaçəkmə müəssisəsini idarə edir».

**EYNULLANIN HƏBSXANADAKI KAMERASI BOŞ QALMAYIB**

Eynulla Fətullayevin Bakı İstintaq Təcridxanasındakı kamerası isə hazırda boş deyil. Jurnalist deyir ki, «23 saylı kamera» 2 aprel mitinqinə görə həbs olunan Müsavat Partiyası İcra Aparatının rəhbəri Arif Hacılının nəsibi olub. Eynulla Fətullayev 2007-ci ildən 2011-ci iləcən həbsdə yatıb.

***Sevinc Hüseynzadə***



# Nehrəmdə susuzluğa etiraz

**Babək rayonunun Nehrəm kəndinin 30-a yaxın sakininin əkin sahələrinin susuz qalmasına etiraz olaraq iyulun 15-də aksiya keçirdikləri bildirilir. Kənd sakinlərindən Kamil Hüseynov AzadlıqRadiosuna deyib ki, əkin sahələrinə suvarma suyunun verilməməsi ilə bağlı dəfələrlə kənd icra nümayəndəsi Təvəkkül Ələkbərova müraciət etsələr də, bu, nəticəsiz qalıb: «Bir aydır əkinimizi suvara bilmirik. Tələbimiz budur ki, bizə su versinlər. Əkin sahələrimiz əsasən bostan bitkiləridir. İstinin altında tağların hamısı susuzluqdan yanır. Hərdən bir bəhanə gətirirlər. Gah deyirlər nasos işləmir, gah da deyirlər ki, pul yığın verin, su verək sizə. Su olanda da hər saatına 20 manat pul istəyirlər. Halbuki hər saatın qiyməti 50 qəpik olmalıdır. İcra nümayəndəsi Təvəkkül Ələkbərov bizə zəng eləyib dedi ki, dağılışın, nasos xarabdır. Düzələndən sonra su veriləcək. Bizə belə vədlər çox verilib. İnanmırıq onlara».**

Nehrəm kənd icra nümayəndəsi Təvəkkül Ələkbərov isə AzadlıqRadiosuna deyib ki, aksiya keçirilməsindən xəbərsizdir. Üstəlik, onun deməsinə görə, Nehrəm kəndində su ilə bağlı heç bir problem yoxdur. Kənd sakinləri isə tələbləri yerinə yetirilməyənə kimi mütəmadi olaraq aksiyalar keçirəcəklərini deyirlər. Mayın 31-də də Nehrəm kənd sakinləri işsizlik və sosial problemlərlə əlaqədar etiraz aksiyası keçirmişdilər.

***Yafəz Əkrəmoğlu***

# Hüquq müdafiəçisi məhkəmə qarşısına çıxarılıb


Vidadi İsgəndərli

**İyunun 15-də Göyçay Rayon Məhkəməsində həbsdə olan hüquq müdafiəçisi Vidadi İsgəndərlinin məhkəməsinə hazırlıq iclası keçirilib. İşə Göyçay Rayon Məhkəməsinin sədri Elxan Süleymanov baxır. Vidadi İsgəndərli ötən ilin noyabrında Milli Məclisə keçirilən deputat seçkilərində namizədliyini irəli sürmüşdü. İndi o, namizədi olduğu dairənin məntəqələrində səsvermə zamanı seçki komissiyasının işinə müdaxilə etməkdə və səsverməyə mane olmaqda təqsirləndirilir. Prosesi izləmək üçün məhkəmənin qarşısına 200-ə yaxın adam yığışsa da, məhkəmə zalında yer olmadığından binanın qarşısında qalıblar.**

Vidadi İsgəndərlinin vəkili Xalid Bağırov vəsatət qaldırıb ki, işdə əsas zərərçəkmiş hesab olunan Araz Ələkbərov ruhi xəstə olduğuna, həkimin razılığı və iştirakı olmadan müstəntiq tərəfindən dindirildiyinə görə ifadəsi işdən çıxarılsın. 69 saylı seçki dairəsinin 2, 16, 17 saylı məntəqələrində olan müşahidəçilərin əksəriyyəti dindirilmədiyindən cinayət işinin bu hissəsi ibtidai istintaqa qaytarılsın. Vidadi İsgəndərli tərəfindən səsvermə hüquqları pozulmuş adamlar məhkəmədə Vidadi İsgəndərlini tanımadıqları üçün işin bu hissəsinə xitam verilsin. Prokuror Nəriman Ələkbərov hakimdən vəsatətlərin təmin olunmamasını xahiş edib. Müşavirədən qayıdan HAKİM VƏSATƏTLƏRİ TƏMİN ETMƏYİB. Məhkəmə baxışını iyulun 20-si saat 15:00-a təyin edib.

Vidadi İsgəndərli hazırlıq iclasında deyib ki, ittihamları qəbul etmir. O, həbsini siyasi sifariş adlandırıb. Bildirib ki, həbsinin əsl səbəbi hüquq müdafiəçisi kimi Baş Prokurorluğu müxtəlif cinayətlərdə ittiham etməsi olub: «Belə olmasaydı, ictimai təhlükəliliyi olmayan cinayətlərdə ittiham olunduğum halda işin istintaqını baş prokurorun nəzarəti altında Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsi aparmazdı».

Bu iş üzrə ibtidai istintaqı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsi aparıb. İTTİHAM AKTInda göstərilir ki, Vidadi İsgəndərli ötən il noyabrın 7-də Milli Məclisə keçirilən seçki zamanı 89 saylı Göyçay-Ağdaş seçki dairəsindən deputatlığa namizədliyini irəli sürüb. Səsvermə zamanı Qarabağlar kəndində yerləşən 16 saylı seçki məntəqəsinə daxil olaraq səsvermənin gedişinə maneçilik törədib. Məntəqə seçki komissiyası tərəfindən aktla sənədləşdirilmiş, küncü səhv kəsilmiş 16 ədəd bülleteni komissiya sədri İbrahim Məmmədəliyevdən zorla alıb. 3 ədəd küncü kəsilmiş bülleteni isə masanın üstündən özbaşına götürərək məntəqəni tərk etmək istəyib. Qarşısını kəsən və bülletenləri tələb edən komissiya sədrini sinəsindən itələyib. Bir neçə saat sonra Mirzəhüseynli kəndində yerləşən 17 və Göyçay şəhərindəki Mədəniyyət Evində yerləşən 2 saylı seçki məntəqələrində də eyni hərəkətləri təkrar edib. Bunlar ittiham aktında yazılıb.

Vidadi İsgəndərli aprelin 17-də İctimai Palatanın mitinqi zamanı saxlanılıb. Onun barəsində Nəsimi Rayon Məhkəməsinin seçdiyi 15 sutkalıq inzibati həbs müddəti başa çatdıqdan sonra barəsində cinayət işi olduğu əsas gətirilərək həbs müddəti uzadılıb.

***Esmira Cavadova***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


**Azərbaycanda hər 100 nəfərə 105 mobil telefon düşür**


**Heydər Əliyevin öz həyatı haqqında AzadlıqRadiosuna dedikləri...**


Ermənistanda "dialoq": **Siyasət, yoxsa teatr?**


**Bakıda içməli suyun saxta brendləri**



**Benzin harada neçəyədir?**

# 10 minə yaxın abituriyent imtahanlardan 0-100 bal yığıb



Mələykə Abbaszadə

Ali məktəblərin III və I ixtisas qrupunun imtahanlarında builki məzunların 9800 nəfəri 0-100 bal nəticə göstərib. APA-nın məlumatına görə, bunu Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) sədri Mələykə Abbaszadə keçirdiyi mətbuat konfransında deyib. O bildirib ki, I ixtisas qrupunun imtahanlarında 5506, III ixtisas qrupunun imtahanlarında isə 4331 məzun 0-100 bal arası nəticə göstərib: «Bu, çox aşağı göstəricidir. Onlar orta məktəbi bu il qurtarıblar və attestat alıblar. Bunlar yalnız rəqəmlərdir, mən bu rəqəmlərə heç bir şərh verməyəcəyəm». TQDK sədri deyib ki, I ixtisas qrupunun imtahanlarının nəticəsinə əsasən, 100-200 bal toplayan abituriyentlərin sayı kifayət qədərdir. Həmin şəxslərin tam orta təhsil bazasından (11 illik) orta ixtisas məktəblərinə qəbul olunmaq şansları böyükdür.

# Etibar Əliyev: «Azərbaycan təhsili Afrika standartlarına uyğundur»



Firudin Cəlilov

**Təhsilin inkişafına dair Milli Strategiyada hansı problemlər yer tapmalıdır? «İşdən sonra» proqramında təhsil üzrə ekspert Etibar Əliyev və keçmiş təhsil naziri Firudin Cəlilov təhsildəki problemlər barədə danışırlar.**

Firudin Cəlilov:

- «Təhsil və inkişaf sözlərini yanaşı işlətmək mümkün deyil. Heydər Əliyev hakimiyyətə gələndən bu günə qədər təhsil hərəkətdə olub. Amma inkişafa doğru yox, tənəzzülə doğru. Xalq dili ilə desək, Azərbaycan təhsili bu gün o gündədir ki, 7 bacı lazımdır ki, onu ortalığa qoyub ağlasın. Yəni təhsili meyit şəklinə salıblar. Təhsil millətin, dövlətin strateji sahəsidir. Təhsilə dövlət arxasını çevirəndə, bu günə düşür. 21-ci əsr təhsil və elm əsri olsa da, biz get-gedə geri qalırıq. Neftdən gələn gəlirin həcmi artdıqca, təhsilin də qiyməti artır. Bəyəm uşağını təhsil ocağına verən valideyn o puldan gəlir əldə edir ki, onun uşağı daha bahalı təhsil haqqı ödəsin? Halbuki ödənişli təhsil haqqı 10-15 faiz olmalıdır indi. Amma indi 70 faizdən yuxarıdır. Bu, həm Konstitusiyaya, həm Milli Strategiyamıza ziddir. Son qəbul imtahanları da göstərir ki, orta məktəbdə təhsilin səviyyəsi həddən artıq aşağı düşüb. Mən bu sərəncamdan heç nə gözləmirəm. Ola bilsin ki, orada qızıl hərflərlə gözəl sözlər yazsınlar. Ancaq onu yazanlar təhsili bu günə salanlardır».

Etibar Əliyev:

- «Biz Sovet İttifaqından 21 ildir ayrılmışıq. Bu 21 ildə təhsil aybaay, günbəgün, xüsusilə son 15 ildə geri gedir... Azərbaycan təhsili Afrika standartlarına uyğundur. Çünki bir sıra göstəricilər var ki, bizim nəticələrlə Afrika ölkələrinin nəticələri eyni xarakterlidir. Bir-birini bir və ya iki pillə əvəzləyirlər. Azərbaycan təhsilinin bağçadan tutmuş, ali təhsiləcən olan pillələri arasında heç bir əlaqə yoxdur. Əlaqələrin hamısı qırılıb. Azərbaycan təhsili dünyada analoqu olmayan bir təhsil sistemidir. Təhsilə vəsait ilbəil artır, amma təhsilin səviyyəsi ilbəil düşür. Milli Strategiya Azərbaycan təhsilinin indiki duruma düşmə səbəblərini aradan qaldıra biləcəkmi? Əminəm ki, yox. Bu, təhsilin təpədən-dırnağa qədər siyasiləşməsidir».

**Verilişi tam olaraq AzadliqRadiosu.az saytında dinləyin.**

***Xədicə İsmayılova, Kamran Mahmudov***



# Baş Prokurorluq məktəb tikintisində yeyintini araşdırır

**Baş Prokurorluq yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi və Maliyyə Nazirliyi ölkədə məktəblərin tikintisi zamanı yol verilən qanun pozuntuları ilə əlaqədar araşdırmalara başlayıb. Araşdırma zamanı məlum olub ki, Xəzər rayonunun 123 və Suraxanı rayonunun 85 saylı məktəblərinin tikintisi zamanı bir sıra ciddi qanun pozuntularına yol verilib. Amma söhbətin məhz hansı qanun pozuntularından getdiyi açıqlanmır.**

Baş Prokurorluğun sözçüsü Eldar Sultanov: «Araşdırma aparılır, bütün təfərrüatlar barədə yaxın günlərdə ictimaiyyətə məlumat veriləcək».

Eldar Sultanov bircə onu deyir ki, bir sıra hallarda dövlət büdcəsi hesabına məktəblərin tikintisi və təmiri zamanı sui-istifadə hallarına yol verilib, standartlara uyğun olmayan və mövcud normaların tələbləri pozulmaqla tikinti işləri aparılıb. Adıçəkilən məktəblərlə əlaqə saxlamağa çalışdıq. Xəzər rayonunun 123 saylı məktəbinin direktoru Rasimə Kərimova: «Prokurorluq tərəfindən yoxlama gedir, indi heç nə deyə bilmərəm».

Təkcə 2010-cu ildə ümumtəhsil məktəblərinin və uşaq bağçalarının təmiri və yenidənqurulması işləri üçün dövlət büdcəsindən 20,65 milyon manat vəsait ayrılıb, 356 məktəb və 32 uşaq bağçası təmir edilib. 2011-ci ildə də 24 yeni tədris ocağının və 1 məktəbdə yeni korpusun tikintisi nəzərdə tutulur.

***Ülkər Akifqızı***

# Dənizə getmək üçün prezidentə müraciət etdilər

**«SUYU PAMBIQLA SÜZÜB İÇİRİK»**

Bakının qədim məskənlərindən biri olan Fatmayı kəndinin su sarıdan bəxti heç gətirməyib. Son illərə kimi sakinlər içməli suyu kənddən bir neçə kilometr aralı – dəniz sahilində salınmış bağlardan gətirirmişlər. Kənd bələdiyyəsində su ilə bağlı problemlərinin arxada qaldığını desələr də, indi bu kənddəki evlərə içməli su həftədə bir dəfə verilir. Amma onu da içməli hala salana qədər, sakinlərin dedimələrinə görə, xeyli əziyyət çəkirlər.

Kənd sakini Məhərrəm Məhərrəmov:



Məhərrəm Məhərrəmov

- «Suyumuz həftədə bir dəfə gəlir. Həyətdə çənimiz var, suyu yığırıq ora və durulur, sonra pambıqla süzüb içirik. Gördüyün o çən 6 tonluq çəndir. İldə bu çənin içərisindən xeyli palçıq təmizləyib çölə tökürük. Su süzülmür. Bu, heyvanlar üçün olan sudur, biz çarəsizlikdən onu içirik».

**FATMAYIDA XƏSTƏLƏNMƏK RİSKİ**

Məhərrəm kişi Fatmayı kəndində xəstələnməyin də riskli məsələ olduğunu deyir: «Bizim kənddə bir poliklinika var. Nə dərman var, nə bir şey. Bir-iki həkim var. Maşınları isə 35 ilin maşınıdır, xəstə aparanda yolda xarab olur. Düşüb itələyirlər, Bir dənə aptekimiz yoxdur. Fatmayı Bakı kəndləri içərisindən ən geridə qalmış kənddir».

Fatmayı bələdiyyəsi sədrinin müavini Nəsir Nəsirli isə içməli su problemini daha çox fəsillə bağlayır. Deyir ki, yazyay aylarında içməli su problemini paytaxt Bakıda da müşahidə etmək olar: «Mən deyərdim su ilə bağlı problemlərə Bakıda da rast gəlinir. Həftədə bir dəfə, bəzən bacaranda iki dəfə evlərə su verilir, sakinlərin də çəni var, suyu çənə yığırlar və bu da normal haldır».

**FATMAYI İLƏ XƏZƏR ARASINDA «ÇİN SƏDDİ»**

İçməli suyu həftədə bir dəfə görən Fatmayılılar dənizin şor suyuna da həsrət qalıblar. Bu kənd Xəzər dənizindən cəmi 4 kilometr aralıda olsa da, sakinlər heç cür bu məsafəni qət edib dənizə gedə bilmirlər. Üç il əvvəl bu kəndlə Xəzər arasında dörd metr hündürlükdə və kilometrlərlə uzanıb gedən daş hasar çəkilib. Dənizin hasarlanmasından ən çox əziyyət çəkənsə sahildən 50-60 metr aralıda «Muğan» sanatoriyasında yaşayan 70-ə yaxın məcburi köçkün ailəsidir. İndi onlar dənizi görmək üçün ya pilləkən qoyub hasarın üstünə çıxmalıdırlar, ya da sanatoriyanın damına.

- *Kim çəkib bu hasarı?*

- Biz bilirik, amma qorxuruq deməyə. Qaçqınlar eləsə onları güllələyərlər, yəqin məmurlarındır. Elə bil «Çin səddi»dir.

Məcburi köçkünlərin deməsinə görə, dənizin sahili hasarlananda xeyli müqavimət göstəriblər, hətta bir neçə dəfə hasarları söküblər də. Amma polis onların qarşısını alıb. Məcburi köçkünlərin sözlərinə görə, gecələr həmin ərazidə keşik çəkən polislər onları həbslə hədələyiblər.

**«BİZ DƏNİZİ OĞURLAYASI DEYİLİK Kİ?»**

«Dedik balaca yol qoyun, polisi gətirib tökdülər. Dedilər hasarı söksəniz, əl vursanız sizin hamınızı basacıyıq «içəri». Üç dəfə o hasar söküldü-tikildi».



Fatmayı kəndində dənizin hasarları

Fatmayı bələdiyyəsinin sədr müavini Nəsir Nəsirli isə deyir ki, hasarlanan ərazilər Binəqədi bələdiyyəsinə aiddir. Bu səbəbdən dəniz sahilini kimlərin hasarlaması onlara bəlli deyil. Amma o, bütün hallarda bu yay mövsümündə kənd sakinlərinə çimmək üçün imkan yaradılacağına ümid edir: «Bir az orda yer saxlayıblar, ordan keçməklə adamlar dənizdən istifadə edə bilir. İnşallah, yəqin ki, bu mövsüm adamların çimməsinə imkan verərlər».

Amma mən dəniz sahilinə getmək üçün bələdiyyə sədrinin müavininin dediyi yeri çox axtarsam da tapa bilmədim. Sakinlərdən öyrəndim ki, bələdiyyə rəsmisinin dediyi həmin yeri bir neçə gün əvvəl bağlayıblar.

Son ümidlərini prezidentə və onun xanımına bağlayan sakinlər hər iki şəxsə indiyə qədər 200-dən artıq məktub göndəriblər. Onlar düşünürlər ki, prezident dənizin hasarlanmasından xəbərsizdir. Əgər xəbəri olsa, o buna imkan verməz: «220 dənə ərizə göndərmişik, amma hələ heç bir cavab verilməyib. Biz deyirik hasarı çəkirsiz heç olmasa bir yer qoyun ki, gedib dənizdə hava alaq. Ona görə də prezidentə və Mehriban xanıma müraciət göndərmişik ki, bizə şərait yaradılsın ki, dənizə gedə bilək».

***Maarif Çingizoğlu***

# Azərbaycan 13 yaşlı qızın ölümünə görə Ermənistanı ittiham edir

Azərbaycan oyuncaq bombanın partlaması nəticəsində həlak olan 13 yaşlı qızın ölümündə Ermənistanı ittiham edir. Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənov deyib ki, Ermənistan sərhəd rayonlarında yaşayan dinc sakinlərə qarşı təxribatı davam etdirir. İyulun 14-də Ermənistanla sərhəddə yerləşən Tovuz rayonu Əlibəyli kəndində 13 yaşlı qız Ermənistan tərəfdən axan çaydan itə oxşayan oyuncaq tapıb. Oyuncağı evə gətirəndən sonra partlayış olub. Qız xəstəxanaya çatdırılanda yolda ölüb. Anası isə orta ağırlıqda xəsarət alıb. Ana və qız Azərbaycana Rusiyadan qonaq gəlibmişlər.



Əli Həsənov

# Вода - новогодний "подарок"


1 марта 2007

**К концу года пропускная способность водопровода Огуз-Габала-Баку достигнет мощности в 5 кубометров в секунду, сказал глава водного оператора Азербайджана - госкомпании "Азерсу" Горхмаз Гусейнов, сообщает Trend. По его словам, сегодня вода, поступающая по водопроводу Огуз-Габала-Баку, полностью обеспечивает два из 11 районов столицы и, отчасти, еще 5 районов.**

Гусейнов также заявил, что в трех районах Баку, где "раньше вода подавалась раз в 2-3 дня, сейчас она подается ежедневно утром и вечером". До сих пор 40 процентов населения столицы снабжались водой постоянно, а 60 процентов - по определенному графику. Планируется, что после сдачи в эксплуатацию водопровода Огуз-Габала-Баку около 75% населения будут получать воду постоянно, а остальное население - по определенному графику. Водопровод Огуз-Габала-Баку был сдан в эксплуатацию в декабре прошлого года.

# Аллахшюкюр Пашазаде: «Продавать могилы - это харам»

*«Продавать могилы это харам (грех - пер.ред.), нельзя продавать выделенные народу места. Платить деньги за покупку могил все равно что давать взятку», - заявил председатель Управления мусульман Кавказа (УМК), шейх-уль-ислам Аллахшюкюр Пашазаде, передает АПА.*

Пашазаде также затронул вопросы о ценах на процедуры обмывания умерших: «Каждый человек должен мыть своего покойника.Мы создали в мечетях условия для этого. Однако люди этого не делают. Поручают мыть своих покойников другим. Поэтому платят за это. Если говоришь кому-то «помой моего покойного отца», естественно должен заплатить за это. Однако было бы лучше, если бы каждый помыл бы своего покойника сам».

По его словам, "УМК за обмывание покойников в мечети платит занимающимся этим людям по 500 манатов в месяц".


Аллахшюкюр Пашазаде

# Блогер посчитал вещи Медведева


Дмитрий Медведев со своей аудиотехникой

**Блогер Tebedam оценил часы, фото и аудиотехнику Дмитрия Медведева и сравнил полученные цифры с официальной зарплатой президента. И выложил ролик об этом на YouTube. Свою настоящую фамилию Tebedam не афиширует. Просит называть его Павлом Медведевым. Блогер говорит, что он не Навальный: у борца с "Роснефтью" есть юридическое образование и есть время ходить в суды. А tebedam - просто программист, который около часа в день посвящает блогу.**

Дневник называется "Письма президенту". Писал Павел обо всем - об экологии, о бедственном положении в армии, о коррупции... Выкладывал в ЖЖ и направлял адресату. Однако из администрации президента приходили отписки.

И тогда tebedam разместил слайд-шоу: фотографии Медведева в дорогих часах и с дорогой техникой следуют одна за другой под веселую музыкальную композицию. У Дмитрия Медведева (если верить фото) 7 разных часов на общую сумму 4 миллиона рублей (если верить блогеру). А также 6 фотоаппаратов и объективов на сумму 2 миллиона, аудиотехники на 4 миллиона и квартира стоимостью около 140 миллионов рублей. Официальная зарплата президента - 145 000 рублей в месяц (2008 год) и 301 500 рублей (2010-й).

За 5 дней ролик посмотрели более 80 тысяч человек.

Tebedam (Павел Медведев) согласился ответить на вопросы Радио Свобода по телефону:

- Сколько писем вы написали президенту и какой ответ вам больше всего запомнился?

- 34 или 35 писем. В некоторых ответах (я не все опубликовал в блоге) цинизм зашкаливает. Например, я писал в письме про Норильск, который регулярно входит в десятку самых загрязненных городов мира. На мое письмо ответили: в Норильске не такое сильное загрязнение, потому что там людей умирает меньше, чем в среднем по Красноярскому краю. И сообщили мне, что каких-то двух лиц из "Норильского Никеля" привлекли к административной ответственности за то, что допустили загрязнение.

- Как насчет метода отправки "10 тысяч писем" по одному и тому же адресу?

- Я пытался организовать массовую отправку писем по поводу цензуры в СМИ. Я собрал высказывания ведущих наших федеральных каналов, которые говорят "у нас на телеканале не дают нам говорить то-то, вырезают то-то". Все это я отправлял в Роскомнадзор, который обязан следить за тем, чтобы цензуры не было. А ведомство отвечало, что это, мол, не цензура, а просто личный конфликт людей с руководством. Отдельное письмо я написал Владимиру Познеру. Он на него ответил: "У нас нет свободы слова, но это не цензура". Так что, даже миллион писем ситуацию не изменит.

- Что вас заставляет продолжать свой блог?

- Я надеюсь, что рано или поздно количество критически настроенных людей преодолеет определенный уровень и изменения все-таки пойдут в нужном русле. В противном случае, у страны не может быть будущего.

***Радио Свобода***

# Коррупция во всем мире

**Любимый аргумент азербайджанских властей в ответ на обвинения или даже не обвинения, а просто очередные вскрывшиеся факты коррупции – это «коррупция во всем мире есть». Что и говорить, действительно во всем мире есть. И примеров тому много. Сравнительно недавно разразился коррупционный скандал в Великобритании, в котором были замешаны депутаты британского парламента. По закону зарплата депутата составляет более 5 000 фунтов, а кроме того, он имеет право на возмещение расходов, связанных с парламентской деятельностью. Среди них две основные статьи – жалование своим помощникам, которое может достигать 100 000 фунтов в год и оплата жилья в Лондоне, вместе с поддержанием его в должном порядке, которое составляет около 24 000 фунтов в год.**

Кроме это британские слуги народа имеют право расходовать казенные деньги на сумму 400 фунтов в месяц на ряд других статей личного бюджета. Но английские депутаты находили другие самые разные способы потратить их на другие свои цели с пользой и удовольствием для себя. Например, многие, проживая в собственном доме в Лондоне, объявляли его «вторым домом», в котором они живут по необходимости и получали компенсации за давно выплаченную ипотеку и налог на имущество, а на эти деньги делали ремонт или приобретали мебель, бытовую технику. Некоторые делали на эти деньги ремонт, продавали дом и тут же покупали новый, другие снимали квартиры и получая деньги на арнеду от государства, пересдавали жилье. Были и такие, кто сдавал квартиру сам себе или своим родственникам.

Многие парламентарии устраивали в помощники своих родственников, что в принципе не запрещено, но должно быть объявлено. В общем, хорошо знакомая гражданам Азербайджана коррупция в действии. Конечно, деньги эти мизерные для азербайджанских депутатов – министров по совместительству, депутатов – братьев и племянников министров, которые занимаются или даже не занимаются бизнесом, зато учреждают крупные компании, или, например, помогают ведению бизнеса и так далее. Тем не менее, эти факты из Великобритании словно бы хорошо доказывают тезис властей, что «Коррупция во всем мире есть».

После того, как газета Daily Telegraph стала печатать с мая 2009 года статьи о расходах членов обеих палат британского парламента за государственный счет, парламенту ничего не оставалось, как избавляться от скомпрометированных депутатов. Простыми стрелочниками дело не



Майкл Мартин

обошлось, пишет российский журнал The New Times. Ушел в отставку спикер парламента Майкл Мартин, хотя сам не был замешан в такого рода тратах. Затем последовал кабинет министров, и первая - глава Хоум-офиса (аналог МВД) Джеки Смит, которая платила своему мужу 40 000 фунтов в год, плюс пять лет оплачивала аренду дома своей сестры, в котором не жила, «присвоив» таким образов 116 000 фунтов.

Затем о своей отставке объявили министр по делам регионов Хэйзл Бирз, не уплатившая 13 000 фунтов налогов с продажи жилья; министр труда Тони МакНалти, который отремонтировал за госсчет дом родителей на 60 000 фунтов; министр транспорта Джефф Хун, который «запутался» в своих двух домах и налогах на них; секретарь казначейства Китти Ашер, которая уклонилась от уплаты налога с продажи дома на сумму около 17 000 фунтов.



Бизнес-центр британской столицы - Лондон-сити

Были отстранены несколько членов палаты лордов, а что касается простых депутатов-«заднескамеечников», то они уходили пачками. Некоторые предстали перед судом и получили сроки, начиная с января 2011 года: депутат от лейбористов Дэвид Чайтор за незаконно полученные в течение двух лет 20 000 фунтов получил полтора года лишения свободы. Эрик Иллсли получил из бюджета по поддельным документам 14 000 фунтов и за это – год тюрьмы. Депутат Джим Дивайн не признал своей вины, тем не менее его признали виновным в незаконном присвоении около 8 300 фунтов и влепили 16 месяцев тюрьмы.

Это были «заднескамеечники», но кроме них пострадали еще и видные депутаты, вроде бывшего члена кабинета министров Эллиота Морли. Депутат от лейбористов Морли, успевший с 1997 по 2006 год побывать британским министром, подделал массу документов и «вернул» себе средства из бюджета за несуществующую ипотеку. Он признал себя виновным в краже 30 тысяч фунтов, причем суды по таким делам еще продолжаются. Из-за этих разоблачений лейбористы проиграли выборы 2010 года, а Гордон Браун ушел в отставку как лидер партии лейбористов.

Так что, коррупция действительно есть и в такой демократической стране, как Великобритания. Есть она и в Германии, Японии, США, Нидерландах, Швеции и так далее. В этих странах уважающие себя, дорожащие своей репутацией политики уходят в отставку при малейшем несоответствии строгим требованиям, предъявляемым политическим деятелям..

***Чингиз Султансой***

# Xalq Cəbhəsinin yubileyində müxalifətə birlik çağırışları



**«Xalq Cəbhəsi Azərbaycanın dövlət müstəqilliyini bərpa etmiş siyasi qüvvədir. 1989-91-ci illərdə aparılan mübarizə ilə Xalq Cəbhəsi böyük Məhəmməd Əmin Rəsulzadənin 1918-ci ildə qurduğu Xalq Cümhuriyyətini yenidən bərpa edib, Azərbaycanın dövlət müstəqilliyinin elan olunmasına nail olub». İyulun 16-da Azərbaycan Xalq Cəbhəsinin (AXC) 22 illiyinə həsr olunmuş tədbirdə çıxış edən AXCP-nin sədri Əli Kərimli belə deyib. ADP-nin qərargahında keçirilən tədbirdə bir sıra siyasi xadimlər, vətəndaş cəmiyyətinin üzvləri, hüquq müdafiəçiləri iştirak edib.**

Ə.Kərimli deyib ki, AXC son 18 ildə Azərbaycanda azadlıq uğrunda mübarizənin önündədir: «Son 18 ildə Azərbaycanda sülalə hakimiyyəti, avtoritar rejim yarandığı şəraitdə AXC hər zaman ideallar uğrunda, demokratiya, azadlıq, azad mətbuat uğrunda mübarizə aparıb. Sıralarından yüzlərlə siyasi məhbus versə də, AXC bu mübarizədə bir an da tərəddüd etməyib. İndi də bu rejimin qarşısındadır. Bizə imkan vermədilər ki, «Təbriz» kinoteatrında razılaşdırılmış səviyyədə tədbirimizi keçirək».

*Müsavat Partiyasının başqanı İsa Qəmbər* isə müasir Azərbaycan istiqlalının ölkənin demokratik qüvvələrinin əlilə bərpa edildiyini deyib. İqtidar-müxalifət münasibətlərinə toxunan İ.Qəmbər Azərbaycan hakimiyyətinin müxalifətə düşmən münasibəti bəslədiyini deyib. Tədbirdə çıxış edənlərdən Pənah Hüseyn isə AXC-nin təsis konfransının protokollarının əslini, nizamnamə layihəsini AXCP sədri Ə.Kərimliyə təqdim edib. İrandan qayıtdığını deyən P.Hüseyn sənədlərin əlyazmasını Təbrizdən gətirdiyini bildirib.

Çıxış edənlərdən bəziləri müxalifəti birləşməyə çağırıb. AXC-nin yaranmasının 22-ci ildönümü ilə əlaqədar tədbirin «Təbriz» kinoteatrında keçirilməsi planlaşdırılsa da, sonradan kinoteatr rəhbərliyi bundan imtina edib. Tədbir «Koroğlu» uvertürasının səslənməsi ilə başa çatıb. Azərbaycan Xalq Cəbhəsi 1989-cu il iyulun 16-da yaradılıb.

***Sevinc Hüseynzadə***

# Qarabağ BMT Baş Assambleyasında müzakirə olunacaq



**«Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət» və «GUAM məkanında «dondurulmuş münaqişələr»» mövzuları BMT Baş Assambleyasının payız sessiyasının gündəliyinə daxil edilib. Bu haqda məlumat BMT-nin internet saytında yerləşdirilib.**

Hər iki mövzu Baş Assambleyanın ilkin gündəliyinin «Beynəlxalq sülhün və təhlükəsizliyin qorunması» bölümündə əks olunub. «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət» adlı mövzu gündəliyinin 39-cu, «GUAM məkanındakı dondurulmuş münaqişələrin beynəlxalq sülh, təhlükəsizlik və inkişaf üçün fəsadları» isə 35-ci yerdədir. BMT Baş Assambleyasının iclası bu ilin sentyabrın 13-də başlayacaq, sentyabrın 30-da başa çatacaq.

***apa***




**Günün ən çox danışılan hadisələri, ən maraqlı müzakirələr, ən sərt suallar. Həftənin iş günlərində saat 17-dən 19-can AzadlıqRadiosunun efirində. Verilişi canlı dinləmədikdə, sonradan ona AzadliqRadiosu.az saytında qulaq asa bilərsiniz.**



# İlham Əliyev: «6 ayda 38 min iş yeri açılıb»

**«2011-ci ilin birinci yarısında da ölkə qarşısında duran sosial-iqtisadi məsələlər həllini tapıb». Bunu prezident İlham Əliyev Nazirlər Kabinetinin 2011-ci ilin 6 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan iclasında deyib. O bildirib ki, bu dövrdə ümumi daxili məhsul 0.9 faiz artıb, qeyri-neft sektorunda 7.2, kənd təsərrüfatında isə 6.2 faiz artım əldə olunub. İlin birinci yarısında büdcəyə edilən dəyişikliklərdən sonra tarixdə ilk dəfə olaraq Azərbaycan büdcəsi 20 milyard dollara çatıb. Ölkənin strateji valyuta ehtiyatları 9 milyard dollar artıb, hazırda 38 milyard dollar təşkil edir. Son 6 ayda 38 min yeni iş yeri açılıb.**

*Dağlıq Qarabağ münaqişəsinə toxunan İlham Əliyev ATƏT-in Minsk Qrupuna həmsədr ölkələrin dövlət başçılarının son bəyanatını ümidverici adlandırıb:* «Bu bəyanatda Helsinki Yekun Aktı əsas götürülüb, orada status-kvonun dəyişdirilməsi xüsusilə vurğulanır. Belə olan halda isə Azərbaycan torpaqları işğaldan azad olunmalıdır».

*Dövlət başçısı bildirib ki, Minsk Qrupunun həmsədrləri 2009-cu ildə hər iki tərəfə «yenilənmiş Madrid prinsiplərini» təqdim edib:* «Rusiya prezidentinin təşəbbüsü ilə baş tutan Soçi görüşündə Azərbaycan birmənalı olaraq bu prinsipləri qəbul etdiyini bildirib. Ermənistan isə müxtəlif vasitələrlə bu prinsiplərin qəbulundan imtina edir».

***Kəbiran Dilavərli***

# Kürdə batan mühasib və yaxud 185 milyon manat Beynəlxalq Bankdan necə çıxıb?


Azərbaycan Beynəlxalq Bankı

**Azərbaycan Beynəlxalq Bankından (ABB) külli miqdarda pul vəsaitləri yoxa çıxıb. Məsələ səhmlərinin 50 faizi dövlətə məxsus olan bankda audit yoxlamaları və hüquq-mühafizə orqanlarının məhkəmə müraciətlərindən bəlli olub. Bank və dövlət rəsmiləri isə gedən yoxlamaları və hətta həbsləri də ört-basdır etməyə çalışırlar. Hərçənd ki, itirilən təkcə dövlət vəsaiti deyil. Beynəlxalq Bankın «ümidsiz kreditləri»nin bataqlığında insan taleləri və ən azı bir insanın həyatının batmasına dair iddialar da var.**

### «ÜMİDSİZ KREDİTLƏR» BATAQLIĞI

Maraqlıdır ki, Mərkəzi Bankın rəsmi məlumatlarında bu borclar əksini tapmır. İqtisadçı-ekspert Samir Əliyev hökumətin problemi gizlətməkdə maraqlı olduğunu deyir: «Mərkəzi Bankın məlumatına görə, aprelin 1-i tarixinə ölkə üzrə bütün bankların vaxtı keçmiş kreditlərin həcmi 539,9 milyon manatdır. Halbuki bu tarixə təkcə ABB-də belə kreditlərin həcmi 675 milyon manatdan çoxdur».

ABB-dəki vəziyyət beynəlxalq narahatlığa da səbəb olub. Beynəlxalq Valyuta Fondunun bu ilin fevralında Azərbaycana səfər edən missiyası ölkədə maliyyə sabitliyinin təmin edilməsi məqsədi ilə ABB-də tənzimləmə proseslərini başlamaq üçün hökuməti təcili tədbirlər görməyə çağırıb.

Bankın internet saytında göstərilir ki, vaxtı ötmüş kreditlərin 103.9 milyon manatı təhlükəli, 81.2 milyon manatı isə, ümumiyyətlə, qayıdacağına ümid olmayan kreditlərdir. Bankın tamamilə əlini üzdüyü aktivlərə «ümidsiz kreditlər» deyilir. Vaxtı ötmüş kreditlərin təqribən üçdə biri – təhlükəli və «ümidsiz» kreditlərin həcminə bərabər məbləğ bir adamın əlindən keçib – istintaq materiallarında belə iddia edilir.

**Tanış olun: Xəqani Bəşirov**

### XƏQANİ BƏŞİROV KİMDİR?

50 yaşlı Xəqani Bəşirov geniş əlaqələrə malik azərbaycanlı biznesmendir. Xarici Dillər Universitetinin fransız dili fakültəsini bitirib. Azərbaycan qanunları ikili vətəndaşlığı qəbul etməsə də, Bəşirov həm də Fransa vətəndaşıdır. Ailəlidir, 2 qızı var. Azərbaycanda qızıl hasilatı ilə məşğul olan «Anglo-Asian Mining plc» şirkətinin səhmdarlarından biridir (16,5 faiz). O, 1991-ci ildə ilk milli konsaltinq şirkəti «VneshExpertService»-i yaradıb (2006-cı ildə «V.E.S. Consultancy LLC» şirkəti adlanıb). Bakı, Gəncə, Moskva, Astana, Tbilisi, Paris, Lüksemburq, London və Toronto şəhərlərində nümayəndəlikləri olan şirkətin rəsmi saytında tərəfdaşlar arasında əksər nazirliklərin, o cümlədən Beynəlxalq Bankın adı keçir.

### 185 MİLYON BANKDAN NECƏ ÇIXIB?

Xəqani Bəşirovun təqsirləndirilən şəxs qismində saxlanması üçün Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin xüsusi mühüm işlər üzrə böyük müstəntiqi Zakir Məmmədovun verdiyi vəsatət, baş prokuror Zakir Qaralovun verdiyi təqdimatda deyilir ki, Bəşirov Azərbaycanda və xaricdə yaratdığı çoxsaylı şirkətlər vasitəsilə Beynəlxalq Bankdan 2 il ərzində 185 milyon manat kredit alıb və qaytarmayıb: «Xəqani Bəşirov külli miqdarda pul vəsaitini mənimsəmək məqsədi ilə Panama Respublikasında qeydiyyata alınmış və özünün direktoru olduğu «OCEANSTREAM İNC» şirkəti tərəfindən Azərbaycan Respublikasında qeydiyyata alınmış «General Konstrakşn» MMC-nin təsisçilik hüququnu əldə edərək, «Xəzər Menecment Sistems» MMC, «Ceneral Konstrakşn» MMC və həmin cəmiyyətin əməkdaşlarının adına rəsmiləşdirilmiş «Aygün İnşaat», «Aqora», «Pərvanə», «Uni Oyl», «Alfa Layn», «Beta Layn», «Kondor Qrup» və «Siqma Layn» MMC-lər tərəfindən «Azərbaycan Beynəlxalq Bankı» ASC-dən (ABB) qanunsuz olaraq alınıb və müəssisələrə kredit kimi rəsmiləşdirilib».

Xətai Rayon Məhkəməsi bu təqdimata əsasən Bəşirovun həbsinə sanksiya verib. 5 aylıq həbsdən sonra Bəşirov azad edilib. Həbs üçün əsas verən iddiaların sonrakı istintaqı isə


Xəqani Bəşirov

müəmmalarla doludur. Adının gizli saxlanmasını istəyən mənbələr Bəşirova daha bir şans verildiyini bildirir. Digər məhkəmə işlərindəki sənədlər isə Xəqani Bəşirova əvvəllər də kifayət qədər şans verildiyini göstərir.

### DAHA BİR ŞANS, DAHA BİR KREDİT

2008-ci il martın 7-də Bəşirova məxsus «Siqma Layn» «Qelios»un 50 faiz səhmlərinə sahib olub, lakin səhmlərinin pulunu tam ödəməyib. Sonrakı illər ərzində «Siqma Layn» ABB-dən «Qelios» MMC ilə birgə biznes adıyla bir neçə dəfə pul alıb, əsas kredit və faizlər üzrə borclarını qaytarmasa da, bank ona kredit verməyə davam edib. Üstəlik, kredit faizində xeyli güzəşt edildiyi görünür – ABB-nin adətən 18-22 faizlə kredit verdiyi deyilir, amma sözügedən şirkət 13 faizlə kredit götürüb.

*(davamı səh. 10-da)*

# Həkimlər talassemiyalı xəstəyə «Hepatit-C» virusu yoluxdurub

**«Bizim «qəhrəman» həkimlər talassemiya xəstəsi olan bir uşağa qan köçürərkən, onu «Hepatit-C» virusuna yoluxdurublar». Bu açıqlamanı AzadlıqRadiosunun «Can Bakı» proqramına vəkil Aslan İsmayılov verdi. O deyir ki, avqustun 31-də 18 yaşı tamam olacaq bu şəxsin həyatı tükdən asılıdır: «Mənə anası—xarici dil müəllimәsi olan imkansız qadın müraciət etdi. Ad çəkməyəcəyəm. Çünki diskomfort yaşamaqlarını istəmirəm. Valideynlərinin çarəsizliyini görən uşaq özü mübarizəyə girişib. Türkiyədə talassemiyayla bağlı konfransa qatılıb və bir yəhudi həkimlə tanış olub. Həkim uşaqla, xəstəliyi ilə tanışlıqdan sonra ondan anasının elektron ünvanını alıb və anaya məktub yazıb».**



Vəkil Aslan İsmayılov

### YƏHUDİ HƏKİM ANAYA NƏLƏR YAZDI?

Aslan bəy ananın məktubu ona gətirdiyini dedi: «Yazır ki, mən Sizin övladınızı çox sevdim. Çünki tərbiyəli, mütaliəli, dünyagörüşlü uşaqdır. Amma onun 12-16 ay ömrü qalıb... Xahiş edirəm, bu işə ciddi yanaşın! Ya külli miqdarda pul lazımdır ki, ciyəri dəyişdirilsin, ya da onu Avropa ölkələrindən birinə övladlığa verin. Çünki bu xəstəliyin müalicəsi Avropa Birliyi ölkələrində pulsuzdur. Onu edə bilməsəniz, son variantı təklif edirəm. Mənim 62 yaşım var. Onu övladlığa götürə bilərəm».

Ananın iki aydır onun yanına gəlib-getdiyini, gecə-gündüz göz yaşı tökdüyünü deyən Aslan İsmayılov dərhal həkimlə əlaqə yaratdığını dedi: «Həkim övladlığa götürməyə hazır olduğunu bildirdi, özünə vəkil tutdu. Mən də buradan vəkillə əlaqə saxladım. Bizim qanunvericilikdə nəzərdə tutulan sənədləri bir-bir tələb etməyə başladım. 10-dan çox sənəd aldıq. İddia hazırlayıb Binəqədi Rayon Məhkəməsinə göndərdik. O sənədlərin əsasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bir rəy verməlidir ki, biz icazə veririk».

### AVQUSTUN 31-nə QƏDƏR VAXTIMIZ VAR

Aslan İsmayılov avqustun 31-nə qədər övladlığa götürmənin tamamlanmasının gərək olduğunu söylədi: «Çünki o tarixdə uşağın 18 yaşı tamam olur. Ondan sonra bu işi gerçəkləşdirmək olmaz...».

Vəkil Komitədə onlara problem yaratdıqlarını bildirdi: «Dedilər sənədlərin möhürü yoxdur. İsraildə o sənədə möhür vurmurlar. Geri göndərib təzədən möhür vurdurduq... Təqdim etdik. Sonda bizdən bir sənəd istədilər ki, bu işi İsrailin dövlət orqanı etməlidir. Birdən uşaqdan donor kimi istifadə edərlər. Mən etiraz etdim ki, bu uşaqdan donor kimi istifadə oluna bilməz. Birincisi, 18 yaşı olacaq. İkincisi, bu cür xəstə olan orqan kimə lazımdır?».

### QANUNU POZMAQ İSTƏMİRİK

Vəkil deyir ki, məhkəmə qərarı qəbul olunandan sonra ən azı bir ay vaxt lazımdır ki, bu qanun qüvvəyə minsin: «Yəni bu gün qəbul olunsa, ancaq avqustun 13-ü o qərarı ala bilərəm. Sonra dərhal leqallaşdırıb İsrailə göndərməliyik ki, oradakı həkim ayın 31-nə qədər bunu sənədləşdirsin. Aynur Sofiyevaya (Komitə sədrinin müavini) da müraciət etdim. Dedi çalışarıq, amma qanunu pozmaq istəmirik».

Vəkil hər dəfə xəstənin evinə zəng edəndə, telefonu qaldıran uşağın necə sevindiyini duyur: «Sevincək anasını çağırır. Elə bilir, hər şey mənim əlimdədir...».

***Sevda İsmayıllı***

# Kürdə batan mühasib və yaxud 185 milyon manat Beynəlxalq Bankdan necə çıxıb?

*(əvvəli səh. 9-da)*

**2010-cu ildə yoxlamalar dövründə Bank «Siqma Layn»dan və «Qelios» MMC-dən kreditini tələb etməyə başlayıb. «Qelios» MMC isə 1 saylı Bakı İqtisad Məhkəməsində iddia qaldırıb ki, «Siqma Layn»la müqaviləsinə xitam verilsin. Əsas olaraq da onu göstərib ki, Xəqani Bəşirovun şirkəti bu ortaqlıqdakı payını maliyyələşdirmək üçün kredit alsa da, öhdəliklərini yerinə yetirməyib.**

### MÜHASİB NECƏ YOXA ÇIXDI

Üç tərəfin pul çəkişməsi bir yana, audit yoxlamalarının qaynar vaxtında şirə zavodunun mühasibinin yoxa çıxması maliyyə çək-çevirinin bir ailənin faciəsinə səbəb ola biləcəyi haqda şübhələr yaradır. Kürdəmir şirə zavodunun – «Qelios» MMC-nin baş mühasibi Nadir Kərimov aprelin 7-də itkin düşmüşdü, 21 günlük axtarışdan sonra Kürdəmir Rayon Polis Şöbəsinin əməkdaşları onun cəsədini Kür çayından tapıblar. Bununla əlaqədar Kürdəmir Rayon Prokurorluğunda cinayət işi açılıb. Ölən mühasib Nadir Kərimovun ailəsi şikayət ərizəsində yazıb ki, onu öldürüb Kürə atıblar. Mərhumun oğlu Kərim Mehdiyev Simsar.az saytına deyib ki, atasının şirə zavodunun rəhbərliyilə münasibətlərində problem olub: «Vergilər Nazirliyindən zavodu yoxlamağa gəliblər. Zavodun icraçı direktoru vəzifəsində çalışan Zabit adlı şəxs aprelin 7-də evdən atamla birlikdə çıxıb. Ondan sonra atam evə qayıtmayıb. Kür çayı bizim kənddən çox uzaqda yerləşir. Atam nə balıq tutandır, nə də qışda çimmək kimi vərdişi olub. Atamı öldürüb Kürə atıblar».

Kürdəmir Rayon Prokurorluğu istintaq başa çatmayınca işlə bağlı heç bir məlumat verməyəcəyini bildirir. Ölümlə bağlı istintaq isə hələ davam edir.

**Yazının davamını AzadliqRadiosu.az saytında oxuyun.**

# Prezidentə şikayət edən zabiti "cinayətkar" çıxardılar



Prezidentə müraciət edən əsgərlər

**Azərbaycan Silahlı Qüvvələrinin Beyləqanda yerləşən «N» saylı hərbi hissəsinin üç zabiti - kapitan Ramin Qasımov, leytenant Əsgər Əsgərov, gizir Şahlar Rzayevin ordudakı korrupsiya faktı ilə əlaqədar Ali Baş Komandan İlham Əliyevə müraciət edib. Zabitlərin müraciətini əks etdirən videolent internetdə də yayılıb. Ona AzadliqRadiosu.az saytında baxa bilərsiniz.**

Adları çəkilən zabitlər bildirirlər ki, Beyləqanda qasırğa nəticəsində dağılan hərbi hissənin kazarması təmir edilməyib. Məcburiyyət qarşısında qalan bölük və tağım komandirləri öz əməkhaqqı kartalarını girov qoyaraq tiknti materialları alıb kazarmanı təmir etdiriblər. Çətin vəziyyətlə qarşılaşan kapitan Qasımov əməkhaqqı kartının hazırda Beyləqandakı inşaat materialları mağazasında girov olduğunu bildirib.

Bu zabitlərdən biri - kapitan Ramin Qasımovun barəsində cinayət işi varmış. Bunu isə Müdafiə Nazirliyində tərbiyə işləri üzrə idarənin rəhbəri Vaqif Məmmədov iyulun 15-də keçirdiyi mətbuat konfransında bildirib. Vaqif Məmmədov deyib ki, orduda korrupsiya barədə prezidentə müraciət edən zabitlər - kapitan Ramin Qasımov, leytenant Əsgər Əsgərov və gizir Şahlar Rzayevlə söhbət aparılıb.

V. Məmmədov qeyd edib ki, Ramin Qasımov gənc zabit olmasına baxmayaraq, bir neçə dəfə əsgərləri incidib və bununla bağlı komandirlərə şikayət gəlib: «Amma onun cavan, gənc zabit olduğu nəzərə alınaraq Ramin Qasımovla belə hallara bir də yol verməməsi haqda profilaktik söhbət aparılıb».

Vaqif Məmmədov deyir ki, sonuncu dəfə ötən ay onun 2 əsgərə fiziki işgəncə



Vaqif Məmmədov

verməsi ilə bağlı hərbi komandanlığa şikayət daxil olub: «Bundan sonra tədqiqat işi başlayıb. Artıq kapitana güzəştə gedilməyib, iyulun 4-də Hərbi Prokurorluqda barəsində Cinayət Məcəlləsinin 331.3 maddəsi ilə cinayət işi qaldırılıb». Həmin maddə 7 ildən 9 ilə qədər həbs cəzası nəzərdə tutur.

Vaqif Məmmədovun bildirməsinə görə, hərbi hissədə hərbçilərdən izahat alınarkən məlum olub ki, Ramin Qasımov barəsində açılan cinayət işi bağlanmazsa, qisas alacağını bildirib. Prezidentə ordudakı korrupsiya ilə bağlı müraciət edən digər 2 zabitə gəldikdə isə, Vaqif Məmmədov deyib ki, onlar öz izahatlarında söhbətin nədən getdiyini anlamadıqlarını, sadəcə, bir komandir kimi Qasımova tabe olduqlarını deyiblər.

Prezidentə müraciətdə zabitlər isə qeyd edirdilər ki, hərbi hissədə aparılan təmir işlərinə görə öz maaş kartlarını nisyə mal aldıqları mağazalara qoyublar. Mətbuat konfransında Vaqif Məmmədov məsələnin bu tərəfini şərh etmək istəməyib və araşdırmanın davam etdiyini bildirib. Vaqif Məmmədov həmçinin hazırda iş başında olan kapitan Ramin Qasımovun şəxsi əşyalarına baxış zamanı spirtli içkilər və sulu qəlyan aşkarlandığını deyib.

***Səadət Akifqızı***

# Korrupsiyada ittiham olunanlar yeni vəzifəyə təyin edilir

**Korrupsiyada ittiham edilərək işdən azad olunduğu bildirilən Narkoloji Mərkəzin (Narkoloji Dispanser iyunun 14-dən Narkoloji Mərkəz adlandırılır ) sabiq baş həkimi Könül Vəliyeva yenidən Mərkəzə bərpa edilib. O, indi Narkoloji Mərkəzin direktor müavinidir. Mərkəzin direktoru Telman Məmmədhəsənovun AzadlıqRadiosuna verdiyi məlumata görə, Könül Vəliyeva iyunun 20-də Səhiyyə Nazirliyinin əmri ilə müalicə işləri üzrə müavin təyin edilib.**

**BAŞ PROKURORLUĞUN MƏLUMATI**

Baş Prokurorluğun mətbuat xidmətinin iyunun 7-də yaydığı məlumata görə, Respublika Narkoloji Dispanserinin həkimi Elgiz Mustafazadənin Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin "Qaynar xətt"inə daxil olmuş müraciəti əsasında mayın 5-də vəzifə səlahiyyətlərindən sui-istifadə maddəsilə cinayət işi başlanıb. İstintaqla müəyyən edilib ki, 2006-2011-ci illərdə Narkoloji Dispanserin baş həkimi Könül Vəliyeva həkim Rumziyyə Maçanovanın vasitəsi ilə qanunsuz olaraq hər ay dispanserin həkimlərindən 150-200 manat məbləğində pul alıb. Həmin məbləği verməyən həkimləri isə işdən azad etməklə hədələyib. Bundan başqa, Könül Vəliyeva xəstələri onlara pulsuz verilməli olan dərman preparatları ilə təmin etməyib və s. qanunsuzluqlara yol verib.

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov AzadlıqRadiosuna deyib ki, cinayət işi sabiq baş həkim barəsində deyil, şikayətlə bağlı toplanan materiallar üzrə açılıb: "Sabiq baş həkim hələ ittiham olunmur, ona ittiham elan edilməyib".

**SƏHİYYƏ NAZİRLİYİ CAVAB VERMİR**

Korrupsiyaya Qarşı Mübarizə Fondunun icraçı direktoru Vasif Mövsümov da hesab edir ki, əgər baş prokurorluğun bu məsələ ilə bağlı yaydığı məlumatda qeyd olunduğu kimi istintaq baş həkimin qa-



nunsuzluğa yol verdiyini müəyyən edibsə, onda belə bir təyinat olmamalı idi. Səhiyyə Nazirliyindən isə bu məsələyə münasibət öyrənə bilmədik.

***Maarif Çingizoğlu***

# Bakı Beynəlxalq Avtovağzalı qalmaqalı bitmək bilmir

**AzadlıqRadiosunun Bakı Beynəlxalq Avtovağzalı Kompleksinin sahibinin Nəqliyyat naziri Ziya Məmmədovun qardaşı, Milli Məclisin deputatı Elton Məmmədov olduğunu üzə çıxaran araşdırması bir Bakı sakininin ikiillik məhkəmə çəkişməsinə də işıq salır. Bakı sakini, avtovağzal tikintisinin qurbanı olan Mehralı Məmmədov özü radioya müraciət edib:**

**RADİONUN «QAYNAR XƏTT»İNƏ ZƏNG**



Mehralı Məmmədov

«Sizin internet saytınızda «Beynəlxalq Avtovağzalın sahibi Vircin adalarından çıxdı» başlıqlı yazını oxudum. Qeyd etmək istəyirəm ki, həmin avtovağzalın yaxınlığında mənim şəxsi mülkiyyətim birbaşa Elton Məmmədov tərəfindən yerlə-yeksan olunub, içərisində nə avadanlıq vardısa, hamısı dağıdılıb, özümü də ordan qovublar. Sizin saytda oxudum ki, Elton Məmmədov özü etiraf edib ki, «Bakı XXI Əsr» MMC-nin təsisçisi odur. Lakin məhkəmə proseslərində «Bakı XXI Əsr» MMC-nin nümayəndələri dəfələrlə bildiriblər ki, Elton Məmmədovun «Bakı XXI Əsr» MMC ilə heç bir əlaqəsi yoxdur».

Mehralı Məmmədovun üzərində biznes və yaşayış obyektləri olan üç hektara yaxın ərazisi indi Beynəlxalq Avtovağzalın yerləşdiyi sahənin arxasındadır. Avtovağzal tikiləndən sonra bu ərazini də məhkəməsiz filan boşaldıblar, Mehralı Məmmədovun evini də, restoranını da söküblər. Halbuki Məmmədovun bu əraziyə mülkiyyət hüququnu təsdiq edən sənədləri də varmış.

**BAŞIBƏLALI «YEDDİ GÖZƏL» VƏ 3 HEKTARA YAXIN SAHƏ**

*- Söhbət hansı təşkilatdan gedir?*

- «Bakı XXI Əsr» MMC-dən. Soruşdum bəs niyə belə? Hakim dedi biz onlara neyləyə bilərik? Hara müraciət edirəmsə, deyirlər biz onlara neyləyə bilərik. Deyirdim necə yəni neyləyə bilərik, o da vətəndaşdır, mən də vətəndaşam. Məhkəmə özü də əraziyə baxış keçirtdi, 3 hektar sahənin şumlandığını gördü. Mənim söküntü zamanı və söküntüdən əvvəl çəkdiyim videogörüntülərə baxdı, bununla belə dedilər biz onlara heç nə edə bilmərik.



Elton Məmmədov

**MƏHKƏMƏ NƏ DEYİB...**

Mehralı Məmmədov mülkiyyət hüquqlarının pozulması ilə əlaqədar 1 saylı Bakı Yerli İqtisad Məhkəməsinə müraciət edib. Məhkəmə 2010-cu ildə qətnamə çıxarıb. Mehralı Məmmədovun qeyd olunan ərazilərə mülkiyyət hüququ məhkəmə ilə tanınsa da, obyektlərin qanunsuz söküldüyü təsdiqlənsə də, sonda qərar çıxarıb ki, iddiaçının dəymiş zərərin «Bakı XXI Əsr» MMC-dən tutulması tələbinə dair iddiası rədd edilməlidir. Məhkəmə səbəb kimi qeyd edib ki, iddiaçıya məxsus obyektin məhz «Bakı XXI Əsr» MMC tərəfindən sökülməsi sübuta yetirilməyib.

Ancaq bu söküntünün «Bakı XXI Əsr» tərəfindən aparıldığını şirkətin özü də danmayıb.

**POLİS SORĞUSU**

2 fevral 2010-cu il tarixdə Binəqədi Rayon Polis İdarəsinin 40-cı polis bölməsinin rəisi Faiq Bədəlov Elton Məmmədova sorğu məktubu yollayıb. 6 gün sonra polis rəisinin məktubuna «Bakı XXI Əsr» MMC-dən cavab məktubu gəlir: «Sizdən daxil olmuş məktuba cavab olaraq bildiririk ki, həmin ərazi yol-nəqliyyat infrastrukturunun inkişafı ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyəti başçısının müvafiq sərəncamları əsasında «Bakı XXI Əsr» MMC-yə Bakı Beynəlxalq Avtovağzal Kompleksinin tikintisi üçün ayrılıb. «Bakı XXI Əsr» MMC-nin ərazisində hər hansı fiziki və hüquqi şəxsə məxsus əmlak qeydiyyatda yoxdur. Baş direktor E.Məmmədov».

Maraqlıdır ki, Milli Məclisin deputatı kimi MMC-yə başçılıq etməsi qeyri-qanuni olan Elton Məmmədov əslində deputat olduğu dövrdə bu fəaliyyətini dayandırmayıb, məktublara cavab verib.

**ELTON MƏMMƏDOVDAN ETİRAF**

Bu cavab məktubundan sonra polis bölməsi Mehralı Məmmədovun ərizəsini araşdırmaqdan imtina edib. Faktla bağlı cinayət işi başlanması xahişi rədd edilib. Belə əsaslandırıb ki, iş mülki mübahisə xarakterlidir və məhkəmədə həll olunmalıdır. Məhkəmə Mehralı Məmmədovun təqdim etdiyi bu sənədi isə, ümumiyyətlə, araşdırmayıb. Və qətnamə çıxarıb ki, Elton Məmmədovun «Bakı XXI Əsr» MMC-nin baş direktoru və təsisçisi olması barədə cəmiyyətin təsis sənədlərində heç bir məlumat yoxdur, Elton Məmmədovun hansı səbəbdən polisin sorğu məktubuna cəmiyyətin direktoru kimi cavab verməsi isə məhkəməyə məlum deyil.

AzadlıqRadiosunun əməkdaşları Beynəlxalq Avtovağzalın kimə məxsus olması ilə bağlı araşdırmalarında «Bakı XXI Əsr» MMC-nin sahibini də axtarıblar və Nəqliyyat naziri Ziya Məmmədovun qardaşı Elton Məmmədov olduğunu üzə çıxarıblar. Elton Məmmədov «Bakı XXI Əsr» MMC-nin təsisçisi olduğunu AzadlıqRadiosuna özü təsdiqləyib.

***Esmira Cavadova***

## AzadlıqRadiosunda daimi verilişlər:



# Vatikanda tapılmış Azərbaycana aid əsərlər artıq Bakıdadır

**Milli Elmlər Akademiyasının əməkdaşı Fərid Ələkbərli deyib ki, Vatikan Məxfi Arxivlərində Azərbaycana aid aşkarlanan əsərlər, daha doğrusu, əlyazmaların surətləri artıq ölkəyə gətirilib: «Apostol kitabxanasından 60-a yaxın əlyazmanı ödənişli əsaslarla aldıq, artıq 40-a yaxını bizə gəlib çatıb, 20-si də gələcək. Onların arasında elə unikal əsərlər var ki, indiyədək onların varlığı azərbaycanlılara heç məlum da deyildi. Elə orta əsr müəllifləri var ki, onların kitabları heç bizdə olmayıb. Elə müəlliflər də var ki, bizdə əsərləri var, amma başqa qiymətli əlyazmaları da Vatikandaymış. Məsələn, Nizami Gəncəvinin «Xəmsə»si, Şıxabədin Süxrəverdinin (13-cü əsr filosof olub), Əbdülqadir Marağayinin əsərləri var. Hinduşah Naxçivaninin də riyaziyyata dair əsərləri tapılıb.Bu əsərlərin içərisində indiyədək bizə məlum olmayan çox gözəl hekayələr kitabı var. Folklor nümunəsidir, XV əsrə aiddir. O əsərin mövcudluğu haqda bizdə məlumat yox idi. Bu əsər bizim ədəbi dilimizin qədimliyini sübut edir. Yəni həddən artıq əhəmiyyətli kitablar var ki, onların Azərbaycana gətirilməsi vacibdir».**

Fərid Ələkbərli danışır ki, Apostol kitabxanasında Azərbaycan adı altında seçənək olmadığından bu ölkəyə aid əlyazmaları tapmaq da xeyli çətin işdir. Deyir ki, Azərbaycana aid əsərlər daha çox Türkiyə, İran adı altında saxlanır. Aşkarlanan əlyazmaların isə Azərbaycana, təbii ki, orijinal nüsxəsi yox, sadəcə, CD-yə yazılmış surəti verilib.

***Ülkər Akifqızı***

# Ərəblərin ən məşhur şairi mövqesizlikdə günahlandırılır



**Adonisi (Əli Əhməd Səid Asbar) 20-ci əsrin ən böyük ərəb şairi adlandırırlar. Amma başqa bir ərəb yazarı - iraqlı Sinan Antoon "Al-Jazeera" telekanalının saytında yayınlanan məqaləsində onu mövqesizlikdə ittiham edir. "Gözləmək olardı ki, Adonisin həmvətənləri Suriyada onları 40 ildir boğan qəddar diktaturaya üsyan edəndən dərhal sonra Adonis yalnız vicdanının səsi ilə silahlanaraq güllələr qarşısına çıxan həmin insanların cəsarətini qiymətləndirəcək. Amma o buna oxşar da bir şey etmədi."**

Sinan Antoon məqaləsində yazır ki, Adonisin ərəb liderlərini tənqid edən çıxışları həmişə ümumi xarakterli olub, konkret ünvan göstərməyib. Konkret hadisələrə gəldikdə isə... məsələn, son aylar onun vətəni Suriyada davam edən üsyanla bağlı Adonisin mövqeyi təəssüf doğurur. Məqalə müəllifi Adonisi rejimin dinc əhaliyə divan tutmasına, 1400-dən çox insanı öldürməsinə biganə qalmaqda ittiham edir.

Suriyada üsyan başlanandan sonra - martın 31-də Adonis məqalə ilə çıxış edir. Amma Sinan Antoon "Suriyadakı hazırkı hərəkatın işığında" adlı həmin məqaləni "pessimist" adlandırır: "İnsanların azadlıq istəyinə dəstək vermək əvəzinə, o, İraqdakı kimi Suriyada da xaosun mümkünlüyündən qorxduğunu yazır".

Sinan Antoon-a görə, ən pisi isə odur ki, Adonis Bəşər Əsədə "seçilmiş prezident" kimi müraciət edir: "Halbuki Adonis hakimiyyətin Bəşər Əsədə atasından miras qaldığını bilir".

***Rövşən Qənbərov***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**Tanınmış İsrail yazıçısı fələstinlilərə qarşı siyasəti pislədi**



**İslam dini satiraya necə yanaşır?**



Məlahət Yusifqızı: **Azadlıq qalxdı od qiymətinə (Şeirlər)**



**Dünya ədəbiyyatında sevgi haqqında ən gözəl hekayə**




**Qadınım, Xanımım, Xatunum**



# Çörəyin qiyməti qalxacaqmı?

**Hökumətin qərarına əsasən, iyulun 10-dan etibarən ölkəyə gətirilən taxıl və un yenidən ƏDV-yə cəlb olunub. «İşdən sonra» proqramında aqrar sahə üzrə ekspert Vahid Məhərrəmov, iqtisadçı-ekspert Rövşən Ağayev və Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Sabir Vəliyev bu qərara münasibətini bildirir.**

Vahid Məhərrəmov:

- «İndi Rusiya bazarında taxılın qiyməti kifayət qədər ucuzdur - 1 tonu 150 manatdır. Bizdə isə unun bir tonu 230-250 manat civarındadır. İndi bazar açılıb və rus fermerləri çalışır ki, anbarlarını boşaltsınlar. Azərbaycan hökuməti iyulun 10-dan ƏDV tətbiq edib. Dünyada məhsul ucuzlaşır, ölkədə isə idxal olunmuş xeyli buğda var. Bundan sonra ƏDV tətbiq olunmasaydı, bu buğdanın qiyməti idxal olunacaq buğdanın qiymətindən xeyli fərqli olacaqdı. Məqsəd odur ki, daxildə yığılmış idxal buğdasının qiymətini salmaq mümkün olmasın. Ola bilsin, bunu bəzi oliqarxların mənafeyini qorumaq məqsədi ilə ediblər».

Sabir Vəliyev:

- «Bu dövlət əhəmiyyətli məsələdir. Ötən il ƏDV götürüldüyü üçün Azərbaycana 1.3 milyon tondan çox taxıl idxal olunub. Kifayət qədər Azərbaycanda taxıl ehtiyatı yaranıb. Eyni zamanda ötən il Azərbaycanda 1.3 milyon ton buğda istehsal olunub. Ötən il havalar yaxşı olmadığı üçün 1 milyon az istehsal olunub. Ona görə də hökumət ƏDV-ni götürmüşdü ki, idxal olunan buğda ucuz qiymətə gətirilsin. Bu dəfə hesab etdik ki, daxili bazarı qorumaq, istehsalçıların marağını artırmaq üçün xaricdən gələn bu məhsulları yenidən ƏDV-yə cəlb etmək lazımdır...».

**Verilişi AzadliqRadiosu.az saytından dinləyə bilərsiniz.**

# Allahşükür Paşazadə: “Yas çadırına 30-40 min verirlər”

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Daxili İşlər naziri Ramil Usubova müraciət edib. Bu barədə A. Paşazadə özü məlumat verib. Müraciət «Əjdərbəy» məscidinin yaxınlığındakı çadır maşınları ilə bağlıdır: «Çoxları deyir ki, bu maşınlar, bu çadırlar Şeyxindir. Nazirliyə iki məktub yazmışam ki, bunları buradan qovsunlar, çıxarsınlar... Bilirsiniz, çox pis vəziyyət yaranıb. Çadıra 30-40 min manat verən adamlar var. Özü də bunlar kimlərdir? Ziyalılar, imkanı olan adamlar... Əlbəttə ki, bu, dövlətin siyasəti deyil. Dövlət də belə olmasını istəməz».**



Şeyxülislam Allahşükür Paşazadə

ZƏLİMXAN YAQUB: **«YAS MƏRASİMLƏRİNDƏ BİRCƏ ARAQ ÇATMIR»**

«Bugünkü yas və toy mərasimlərində ifratçılıq həddindən artıqdır. Bu isə İslama da ziddir. Yas mərasimlərindəki ehsanlarda bircə araq çatmır. Yasa gedirsən, bilmirsən toydur, yoxsa yas...» Bunu xalq şairi Zəlimxan Yaqub Qafqaz Müsəlmanları İdarəsində (QMİ) keçirilən tədbirdə deyib. O, qəbir daşlarının dəbdəbəli olmasını da tənqid edib: «Qəbiristanlığa gedəndə məlum olur ki, bircə telefon yoxdur, ölüylə danışasan. Toylarla bağlı da vəziyyət ürəkaçan deyil. Məsələn, gedirəm şadlıq sarayına ki, toy danışım. Deyirəm, mənə beş növ qida lazımdır. Orda deyirlər ki, yox e, beş növ olmaz, gərək əlli beş növ qida ola...».

Z. Yaqub QMİ sədrinə qarşı mətbuatda olan hücumlara isə kəskin reaksiya verib.

***Apa***

# Bakı dünyanın ən bahalı şəhərləri siyahısında



Bahalı şəhərlər siyahısında Nyu-York ancaq 32-cidir

**ABŞ-da yerləşən məsləhət və araşdırmalar təşkilatı - "Mercer"in hazırladığı dünyanın ən bahalı şəhərləri arasında Bakı bu il 48-ci yerdədir. Amma keçən il Bakı daha bahalı şəhər hesab edilmişdi - 36-cı yer. Bu təşkilata görə 48-ci yerdəki Bakıda qiymətlər Praqdan bir az aşağı, Amsterdamdan isə yuxarıdır.**

"Mercer"in hazırladığı Dünyada Yaşam qiymətləri – 2011 siyahısındakı 50 şəhərin içində post-sovet məkanından Moskva və Sankt-Peterburq da var. Moskva dünyanın ən bahalı 4-cü, Sank-Peterburq isə 29-cu şəhəri hesab edilib. Dünyanın ən bahalı şəhəri Anqola paytaxtı Luanda olub.

İlk onluqda sonrakı yerləri Tokio (Yaponiya), Ncamena (Çad), Moskva (Rusiya), Cenevrə (İsveçrə), Osaka (Yaponiya), Sürix (İsveçrə), Sinqapur, Honq-Konq, San-Paolo (Braziliya) şəhərləri bölüşür. Dünyanın ən ucuz şəhəri isə 214-cü sırada Pakistandakı Kəraçi olub. Müqayisə, ən bahalı şəhər olan Anqola paytaxtı Luanda Kəraçidən 3 dəfə bahalıdır.

48-ci yerdəki Bakı post-sovet məkanının 3-cü ən bahalı şəhəri olub. Bakıdan daha bahalı şəhərlər Moskva (4) və Sank-Peterburqdur (29). Almata 80, Kiyev 94, Yerevan 167, Minsk 193, Aşqabat 206, Bişkek 210-cu yerdədir.

# Gənclər Nazirlər Kabinetinin həyətini süpürüblər



Aksiyadan görüntü

İyulun 13-də "Dalğa" Gənclər Hərəkatının bir qrup üzvü Nazirlər Kabinetinin qarşısında səhnələşdirilmiş flaşmob keçirib. Gənclər əllərində süpürgə, xəkəndaz «Könüllü təmizləyirik, təhsil haqlarını artırmayın» şüarı qaldırıblar. "Dalğa" hərəkatının sədri Orxan Nəbiyev deyir ki, flaşmob keçirməkdə məqsədləri Nazirlər Kabineti və Tarif Şurasının qərarı ilə bu ildən təhsil haqlarının artırılmasına etiraz etməkdir:

«Bu ildən başlayaraq təhsil haqları çox yüksək qaldırılıb, gənclərin, tələbələrin təhsil ambisiyalarını öldürürlər, ailələr bu təhsil haqlarını ödəyə bilmirlər. Dövlət büdcəsindən şəhərin abadlaşdırılmasına çoxlu pullar ayrılır, bizə bu abadlaşdırma lazım deyil, biz özümüz könüllü şəkildə sevimli Bakımızı abadlaşdıra bilərik. Amma bizim təhsil haqlarımızı artırmayın».

Flaşmob polis müdaxiləsi olmadan başa çatıb. Bəzi dövlət ali təhsil müəssisələrində ödəniş haqqı 300 manatdan 1500 manata qədər artırılıb. Ən çox artım Azərbaycan Tibb Universitetinin «Müalicə işi»nin ödənişli bölməsinin əyani şöbəsində olub. Bu fakültədə illik təhsil haqqı 1000 manatdan 2500 manata qaldırılıb.

***Sevinc Hüseynzadə***

# Azərbaycanlılar manatı dollardan daha çox sevir

*Əlavə pulunuz olsaydı, onu hansı valyutada saxlayardınız?*

| | ABŞ dolları % | Avro % | Yerli valyuta % | Rus rublu % | Müxtəlif valyutalarda % | Pul toplamaq sərf etmir % | Bilmirəm % |
|---|---|---|---|---|---|---|---|
| Tacikistan | 51 | 4 | 34 | 1 | 0 | 2 | 8 |
| Özbəkistan | 41 | 2 | 49 | 0 | 1 | 2 | 3 |
| Belarus | 39 | 9 | 22 | 1 | 16 | 3 | 9 |
| Gürcüstan | 38 | 23 | 28 | 0 | 1 | 1 | 10 |
| Qırğızıstan | 35 | 6 | 47 | 1 | 3 | 1 | 7 |
| Qazaxıstan | 29 | 10 | 43 | 0 | 5 | 3 | 11 |
| Ukrayna | 28 | 17 | 39 | 0 | 5 | 2 | 9 |
| Ermənistan | 17 | 9 | 63 | 1 | 1 | 3 | 8 |
| Azərbaycan | 14 | 3 | 75 | 0 | 3 | 1 | 4 |
| Moldova | 12 | 28 | 43 | 0 | 7 | 1 | 9 |
| Rusiya | 8 | 12 | 56 | * | 6 | 6 | 12 |

May-sentyabr 2010

GALLUP

Azərbaycanlıların 3/4 –ü öz pullarını manatda, qalanları isə ABŞ dollarında saxlamağa üstünlük verir. ABŞ-dakı "Gallup" sorğu mərkəzinin bu gün açıqladığı hesabatda belə deyilir. Hesabata görə, post-sovet ölkələri vətəndaşlarının əksəriyyəti öz əmanətlərini yerli valyutada saxlamağa üstünlük verir. Xarici valyutalar arasında isə, avrodansa dollara daha çox güvənir.

*"Əlavə pulunuz olsa, onu hansı valyutada saxlayardınız?"* sualına verilən cavablardan aydın olur ki, milli valyutaya ən çox güvənən azərbaycanlılardır. 75 faizlə manatı seçən Azərbaycanın ən yaxın izləyicisi bu siyahıda 63 faizlə Ermənistan vətəndaşlarıdır. Və bir də Rusiya vətəndaşlarının 56 faizi rubla güvənir.

# AzadlıqRadiosunda verilişlər:

<u>*Unutmayın:*</u> Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadliqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

**İşdən sonra**
**Can Bakı**
**Xüsusi reportaj**
**Qaynar xətt**
**Həmyerli**
**Tanınmışlar**
**Şəffaflıq**
**14-24**
**İz**
**Panorama**
**Qafqaz Qovşağı**
**Oxu zalı**
**Hər kəsin haqqı var**
**Təbriz Ekspress**

## Daimi rubrikalar




# Simsiz teleqraf

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa, anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,
**Xaricdən:** (+420) 602 517 052
**Görüntüləri elektron poçtla da yollamaq olar:**
efir@azadliqradiosu.az

# Şərifaktura

## Qibtə




Tanınmış rəssam Rəşid Şerifin misilsiz karikaturalarını AzadliqRadiosu.az saytından izləyə bilərsiniz

# AzadliqRadiosu.az®

## necə dinləməli...

**HotBird 13°E**

**Kanalın adı**
Radio Free Europe/Radio Liberty
**Pol:** V
**Tezlik:** 12.226 Ghz
**Sürət:** 27.500 MS/s

24 saat

**42° E**

**Kanalın adı**
Azadliq VOA Azeri
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s

## Azadlıq Radiosu

## Multimedia

## Son videolar:

«Korrupsiyadan prezidentə şikayət edən zabitlər»



## Verilişlərin vaxtı:

| | |
|---|---|
| Səhər proqramı | $08^{00}$-$10^{00}$ |
| Günorta proqramı | $12^{00}$-$13^{00}$ |
| Təkrarlar | $15^{00}$-$16^{00}$ |
| İşdən sonra | $17^{00}$-$19^{00}$ |
| Kontekst | $20^{00}$-$21^{00}$ |
| Gecə proqramı | $22^{00}$-$24^{00}$ |

## Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** **436-77-41**
**Mobil:** **050/392-74-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tibilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: ferqlidergi@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz